# Rəssamın "Qəmli yaradıcılıq" hissi

Dil təfəkkürü geniş anlayışdır, həm bioloji, həm də linqvistik baxımından bəşərin ilk möcüzəsidir. Görünür, Allah Təalanı bu hədiyəni insana bəxş etmişdir ünsiyyət yaratmaq üçün. Təbiətdə mövcud olan digər canlılara da nəsib olmuşdur, amma sözsüz, dilsiz. Hətta canlı təbiət də belə bir dünyəvi möcüzədən kənarda qalmamışdır. Desəm ki cansız əşyaların da dili yox deyil - təəccüblənməyə dəyməz. Lakin bu dil ilahidən gəlməmişdir. İnsan ona səssiz ünsiyyət dili bağışlamışdır, bir-birini anlasınlar. Bu mənada insan öz hisslərini, daxili pıçıltılarını, hətta etirazlarını "etibarlı cansız" sirdaşından umdu. Rəssam sadaladıqlarımı ağ kətana, heykəltaraş qranit daşa, bəstəkar nota etibar etdi. Deməli, hansı ki, rəssamdan: onun psixologiyasından, yaratdığı tablolardan, portretlərdən yazır - səsini, həqiqətin "açarı"nı tamaşaçıya çatdırır, danışığa - dialoqa gələndə biribirilə anlaşırlar...



**Allahverdi Eminov**

*(Əvvəli ötən sayımızda)*

Nə gözəl zəmanə idi, ürəkdən pıçıldayıram: adlı-sanlı sənətkarlar və cibi boş tələbələr, amma söhbətləri tuturdu. Hətta rəssamlar yeni nəşr olunan şeirlər, hekayələr, povestlər haqqında fikirlərini söyləyirdilər. Altmışıncı və yetmişinci illərdə şeirimizdə imzaları görünən Abbas Abdulla, Tofiq Abdin, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Mövlud, Vahid Əziz, Ramiz Rövşən, Camal Yusifzadə, Əfrayıl Məhərrəmov meyxanələrdə yox, çayxanalarda görünürdülər.

Zaman yetişdi: milli köklü rəssamlarımızın intellektuallığının, dünya sənətçilərilə müqayisə olunacaq səviyyədə dayandıqlarının şahidinə çevrildim. Lakin yenə də ləngliklə, tənbəllik, özünə qarşı laqeydlik bizi geri atdı, gürcü, erməni rəssamları SSRİ miqyasında özlərini kütləviləşdirdilər. Məsələn, əsrin sonlarını xatırlayıram. "Oqonyok" adlı rəngli, nüfuzlu jurnal respublikamıza da gəlirdi, həm də satış yolu ilə. Ara sıra saylarında SSRİ rəssamlarının əsərlərindən repreduksiya bir səhifəlik həcmində müəllifin portretilə verilirdi. Erməni rəssamı Saryanın məğrur görkəmində fotosu və dağa oxşar tablosu yapılmışdı. Baxdım, baxdım, nəhayət, müqayisə subyektini tapdım: 15-16 yaşlı həvəskarın fırçasının məhsulu ola bilərdi! Özümə pıçıldadım: "Aman Allah, böyük peyzaj, fundamental mənzərə ustası Səttar Bəhlulzadə, anan ölsün, bəs sənin tablon hanı? Kaş Saryanı yerləşdirdikləri səhifə ilə yanaşı sənin bircə - seçmədən "Qudyalçay mənzərəsi"ni təqdim edəydilər. Sonralar da "Oqonyok"un hansısa bir sayında azərbaycanlı rəssamın bir tablosunu belə görmədim! Nə yaxşı ki Moskvalı rus sənətşünasları Səttar Bəhlulzadə, M.Abdullayev, Oqtay Sadıqzadə, Böyükağa Mirzəzadə, Toğrul Nərimanbəyov nəslinin yaradıcılığı haqqında arabir yazırdılar, bizimkilərsə susurdular mərkəzi mətbuatda. Psixologiyamızdır! Fikrimi o məqama gətirirəm ki, böyük sənət nəzəriyyəçilərinin diqqətini cəlb edən əsərlər təsadüfən yaranmamışdır, ən fundamentallıq səriştəsinin məhsuludur. Düşünürdüm içimdə: bədii və publisist əsərlər (kitablar) yazmaq hissi motivləşərsə gördüklərimi, müşahidələrimi, yazmaq istədiklərimi ifadə etmək üçün "dil" faktorum vardır, bu dil vasitəsilə məqsədimi oxuculara çatdıraram. Bəs rəssamlar necə? Onlar sözlərdən yox, bəs nədən istifadə edirlər? Mən dil amilinə güvənmişəm doğulduğum vaxtdan, fırçaya və rənglərə deyil. Fırça rəngkarın "dili"ni necə əvəzliyə bilər? Sadəlövh sual versəm özümə ki, rəssamın dili mövcuddurmu? O, hansı "dil"də tamaşaçıların qarşısına çıxır, elə mənim özüm də! Bu "dil" ana dilidirmi? Cavab axtarardım: Xeyr! Dünyada neçə dil daşıyıcıları - yaşadanlar varsa bir o sayda!

Yazarların dediklərinisə tərcümə vasitəsilə anlayacaqlar. Rəsm əsərlərisə tərcümə olunmur, yüz illərlə obrazını yad ellərə vermir, demək, rəssamın işi yazıçının yaradıcılığından qat-qat çətindir! Mən də qələm adamıyam, elə də asan yazmıram. Obrazlarımın taleyini yaşayıram, lakin "dil" məsələsində tamamilə seçilirəm...

Yazıçı sözlərin ifadəsilə əsərini təqdim edir, oxuyurlar, görmək həvəsindən azaddırlar, eşidirlər, yaxud özü pıçıldayır. Rəssam isə hərçənd, tablosu ilə üzbəüz qalır. Onu görür, əslində bu, rəssam üçün sevməkdir, sevgisə ötübkeçir, tablodakı təsvirlər rəssamın gözü qabağındadır, ona dikilən baxışların mənasını duyur, hey baxmaq istəyir, sanki öz əsəri deyil.

Bəzi tamaşaçıların, sənətşünasların nəzərincə, yazarlar danışır və yazırlar.

Tebii ki hamının dili var, ünsiyyət vasitəsidir, lakin yazmır rəssam, ona görə ki, sözlərini, obrazlı düşüncələrini (ifadələrini) fırça vasitəsilə həkk edir. Yuxarıdakı qənaətə gələnlər yəqin ki, rənglərin dilini nəzərdə tutmuşlar. Amma bu, danışan nitq deyil. Sənətşünas Jak Deryo - İada yazmış ki: "Sezan nə edir? O nəfəsi çata biləcəyi qədər yazır, ancaq bu deyimin tərzi heç nəyi təsdiqləmir, özündə deskriptiv (təsviri) istinadı ehtiva edən "Mən sizə borcluyam"ın özü sadəcə, ən azı bu təsvirin imkan açdığı səviyyədə birçə hissinə gəlib dirənir".

Yazıçının dili (həqiqət mənasında) səslərdən ibarətdir. Nobel mukafatı laureatı, rus ədibi İvan Bunin deyirdi ki, hər hansı şeyi yazmamışdan əvvəl o, nəsnəni tapmalısan, onu nə qədər tez tapsam, qalanları öz-özünə gəlir. Səsi tapmaq nəsrin (əsərin) ritmini tapmaqdır, onun səslənməsinin əsasını tapmaq deməkdir, daxili aləmin xidmətidir. Məsələn, İvan Buninin "Arsenyevin həyatı" povestində belə bir təsvir (deskriptiv) var: "Uzaq doğma torpaqda tənha, həmişəlik olaraq hamı tərəfindən unudulmuş qadın rahat yatmaqdadır, qoy onun adı əbədi nura qərq olsun. Adam heç inana bilmir ki, gözsüz kelləsi və bozarmış sümükləri ucqar rus şəhərinin qəbirstanlığında, adsız məzarın dibində qalan bir vaxtlar məni öz qolları arasında böyütmüşdür".

Nitq (dil) rəssamda necədir, rəssamla "dil" tapa bilirmi, uyuşurmu? Rəssam da səsi axtarır, prosesdə ritmi tapır, ürəyində pıçıldayır, bu "daxili nitq" o halda rəssama qaxmar çıxır ki, ana dilini bilir, vuracağı hər bir rəngin, ştrixin incəliyini duyur, aşkara səslənməsini. Əsərlərə baxanda, diqqətlə tamaşa edəndə arxada qalmış xatirələrdən qaçmaq mümkünsüzləşir. Buna bir səbəb də rəssamın doğma dilini varlığı qədər sevməsidir.

Rəssam(lar) həmişə vurğulamış ki, sənətin həmkarları yazmırsa, yaxud bu vərdişə alışmamışsa, daxili nitqimizi nəfis sözlərlə zənginləşdirməyə çalışırıq, kətana, kağıza işləyəcəyimiz predmetləri, hadisələri, surətləri obrazlı sözlərdə xəyali görürük, bu cür olmasa təsvir etdiyimiz tablo sirli şəkildə qalar, gəlib çıxardı axmaq bir mücərrədçiliyə. Əsil sənətkar(lar) "İzm"lərdən yaxasını kənara çəkir, impressionistlərə daha canlı bağlanırlar, daha çox təəssürata üstünlük verirlər, alınan təəssüratı yazıçılar söz ilə - nitqin ifadəçiliyi ilə reallaşdırırlar, rəssamlar fırçanın diliylə kətana "danışırlar". Belə bir zövqü rəssamlar - mənzərə - peyzaj, naturmotlarından almışam: Tağı Tağıyev, Arif Hüseynov, Sakit Məmmədov, Fərhad Xəlilov, Oqtay Sadıqzadə, Tahir Salahov, Ağaəli İbrahimov. Bu janrların rəssamları, xüsusilə ekzistensializmə meyillidilər: mövcudluğu, gerçəkliyi eşitmək yox, görmək gərəkdir. Birinci söz adamları ilə yola gedir, ikincinin payına görmək düşür. Çünki görünüş mövcudluğun müxtəlif formalarında özünü büruzə verir. Gerçəklik tabloya köçəndə olduğundan daha zəngin təsir oyadanda fenomenləşir, sadəcə təsvir xarakteri daşımır, görüntü olmur, tablodan tamaşaçılara siqnallar gəlir, bu ayrı-ayrı zövqlü rəssamların dilidir, fəlsəfəsidir, aşağı səviyyəli əsərlərə nisbətən yaxşı mənada daha mürəkkəb tematikalıdır, "sözlü"dür. Məsələnin mahiyyəti də gerçəkliyin hansı sərhədlərə malik olmasındadır. Eyni zamanda bilmək gərəkdir ki, bu görünüş (mövcudluq) hansı yaradıcı enerjinin "bətnindən" qaynaqlanmışdır.

*(Ardı var)*